Mədəniyyət.- 2021.- 5 fevral. S.4.

# "Nizami Gəncəvi İli"nə həsr olunmuş rəsm müsabiqəsi

Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının (ADRA) Tələbə gənclər təşkilatı Azərbaycan Tələbə Gənclər Təşkilatları İttifaqı ilə birgə "Nizami Gəncəvi İli"nə həsr olunmuş rəsm müsabiqəsi keçirir.




ADRA-dan bildirilib ki, müsabiqəyə təqdim olunacaq əsərlərin mövzusu Nizami Gəncəvinin yaradıcılığı ilə əlaqədar olmalıdır. İşlər fevralın 7-dək qəbul olunur. Müsabiqədə 14-29 yaş arasında gənclər iştirak edə bilər. Hər iştirakçı bir əsərlə müsabiqəyə qoşula bilər. Ölçü və işləmə texnikası sərbəstdir, əsər orijinal olmalıdır.

Qeyd edək ki, ilk 3 yeri qazanmış şəxslər təltif olunacaq. Müsabiqənin münsiflər heyəti yaxın günlərdə açıqlanacaq. Əlavə məlumatı info@atgti.az ünvanına məktub yazaraq və ya +994(99) 358 00 04 nömrəsi ilə "WhatsApp"da əlaqə saxlayaraq almaq mümkündür.